# Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyi beynəlxalq hüquqa əsaslanır

**Haqla ədalət qardaşdır, bu səbəbdən də onların adı hər zaman qoşa çəkilir. Deyirlər ki, haqq-ədalət zəfər qazanıb bayraq sancdığı yerdə şər, haqsızlıq ola bilməz. Neçə illərdir ki, haqla ədalətin yolunu gözləyirik ki, gəlib öz taxtında əyləşsin. Bəlkə onda erməni şəri yaxamızdan əl çəkdi. Hələlik isə bədnam qonşularımızın torpaqlarımızda qaladığı münaqişə ocağının odunda yanırıq. Azərbaycan dünyada sülhün, əmin-amanlığın tərəfdarı olsa da, o, zorla münaqişəyə cəlb edilib. Ermənistan, daha doğrusu, ermənilər öz havadarlarının köməyi ilə torpaqlarımızı işğal edib yerli sakin olan azərbaycanlıları yurdlarından didərgin salmasaydı, indi hər kəs öz ocağı başında oturardı.**

Nə Xocalı qətliamı baş verərdi, nə Daşaltı faciəsini yaşayardıq, heç Kərkicahan müsibəti də olmazdı, bu gün Şuşaya, Kəlbəcərə, Laçına həsrət də qalmazdıq. Bədnam qonşularımız isə, bizə hər əzab-əziyyət yaşatdı. Şərin ayaq tutub yeridiyi, atını səyritdiyi məqamlarda haqq-ədalət xalqımızdan üz çevirib meydanı şərin ixtiyarına verdi. İllərdir ki, ermənilər 20 faizdən artıq torpağımızı işğal altında saxlayır. Azərbaycan dövləti isə öz halal torpaqlarını işğaldan azad etmək naminə lazımi işləri görür. Bu işlər saysızdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi mövzusu bizi ciddi düşündürən məsələdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müəllifi erməni şovinistləri və onlara havadarlıq edənlərdir. Təəssüf ki, adını "demokrat" qoyan bəzi dövlətlər də ermənilərin dostudur, onları işğalçılığa həvəsləndirənlərdir. Erməni yalanı bir müddət ayaq tutub yerisə də, onun qarşısını ala bildik. Azərbaycan dövlətinin, xaricdəki diaspor qurumlarının, soydaşlarımızın səyi və apardıqları məqsədyönlü işlər nəticəsində erməni saxtakarlığı ifşa edilməkdədir. Artıq dünya birliyinin bir çox nüfuzlu qurumları və dövlətləri Azərbaycan həqiqətini əlində rəhbər tutur. Azərbaycan dövləti bu münaqişənin həlli məsələsində prinsipial və ədalətli mövqedədir və işğalçı dövlətdən torpaqlarımızı işğaldan azad etməsini tələb edir. Bu, Azərbaycanın haqqıdır və gec-tez buna nail olacağıq. Qarşı tərəf ədalətsiz olduğundan münaqişə həll olunmamış qalır. Regionda lider dövlət kimi bütün dünyada tanınan və bölgədə söz, nüfuz sahibi olan Azərbaycan dövləti, Azərbaycan xalqı torpaqlarını işğaldan azad edəcək. Prezident İlham Əliyev uzun illərdir ki, Azərbaycan dövlətinin ədalətli beynəlxalq hüquq mövqeyindən çıxış edərək onu dünyaya çatdırır. Bu da faktdır ki, Azərbaycan dövləti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə müntəzəm çatdırılması ilə bağlı müvafiq tədbirlər həyata keçirir. Bu sahədə görülən işlərin miqyası günü-gündən artır və müsbət nəticələr ortaya çıxır. İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində artıq dünya ictimaiyyəti Azərbaycan həqiqətlərini qəbul edir və atılan addımlar öz səmərəli töhfələrini verir. Ölkə başçısının nüfuzlu beynəlxalq qurumlara, dövlətlərə səfərləri, eləcə də Azərbaycanda təşkil olunan beynəlxalq tədbirlər ölkəmizi dünyada multikulturalizm mərkəzi, davamlı sosial- iqtisadi inkişaf edən kimi tanıdır. Azərbaycan bu gün beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Azərbaycanın qüdrəti artır, işğalçı Ermənistan getdikcə zəifləməyə başlayır. Ancaq yaddan çıxarmaq lazım deyil ki, dünyada erməni lobbisi, diasporu hələ də güclüdür. Ermənistanın ölkəmizə qarşı apardığı ideoloji müharibənin qarşısında Azərbaycanı dünyaya tanıtmaq istiqamətində hər kəs də öz imkanlarından istifadə etməlidir. Azərbaycan reallığını dünya ölkələri bilsinlər və davamlı inkişafımız barədə məlumatlı olsunlar. Hər bir Azərbaycan vətəndaşının borcudur ki, İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atdığı hər bir addıma, Azərbaycanın ədalətli mövqeyinin dünyada tanınmasına dəstək versin və ərazilərimizin işğaldan azad edilməsi uğrunda mübarizədə öz köməyini əsirgəməsin. Azərbaycan dövlətinin bu sahədə atdığı addımlara dəstək olan Heydər Əliyev Fondu da bu işdə böyük nailiyyətlərə imza atıb. Fəaliyyətə başladığı ilk gündən etibarən fond da münaqişə haqqında həqiqətlərin dünyaya çatdırılmasında böyük işlər görür. Bütün bu işlər Azərbaycan və dünya ictimaiyyəti tərəfindən izlənir. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış "Azərbaycan" internet portalı olduqca böyük əhəmiyyətə malikdir. Portalda Azərbaycan haqqında geniş informasiya əldə etmək olar. Portalda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, Xocalı soyqırımından, erməni vəhşiliklərindən bəhs edən məlumatların yerləşdirilməsi saxta erməni təbliğatına qarşı tutarlı cavab olmaqla dünya ictimaiyyətinin erməni vəhşilikləri ilə yaxından tanış olmasına şərait yaradır. Heydər Əliyev Fondu bununla yanaşı hər il Xocalı soyqırımı ərəfəsində dünyanın müxtəlif ölkələrində soyqırım qurbanlarının fotoşəkillərini sərgiləyir, mətbuatda soyqırım haqqında yazılar dərc etdirir, "Xocalı uşaqların gözü ilə" rəsm müsabiqəsinin iştirakçılarının əsərlərindən ibarət sərgilər keçirir. Mehriban xanım Əliyevanın xüsusi səyi nəticəsində Azərbaycan həqiqətlərinin dünyanın hər yerində nümayişi ilbəil genişlənir. Bu istiqamətdə həyata keçirilən işlərə xüsusi önəm verən fond 2005-ci ildən başlayaraq, müxtəlif dillərdə "Qarabağ həqiqətləri" toplusunu nəşr edir. Beynəlxalq ictimaiyyətə ünvanlanmış toplu ilkin olaraq Azərbaycan, rus və ingilis dillərində çap olunub. Həmçinin, "Qarabağ həqiqətləri" oxucularа alman və macar dillərində təqdim olunub. Təbliğat materialları indiyədək bir çox xarici ölkələrdə yayılıb, müxtəlif tədbir və aksiyalar zamanı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında səmərəli ideoloji vasitəyə çevrilib. Xocalı soyqırımına həsr olunmuş mərasimlər 2005-ci ildən başlayaraq Vaşinqton, Nyu-York, Varşava, London, Pekin, Haaqa, Dubay, Kiyev, Moskva, Berlin, Strasburq, Brüssel, Buxarest, Cenevrə, Ankara, İstanbul, Praqa, Paris, Roma, Tbilisi, Sarayevo və başqa şəhərlərdə həyata keçirilir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Xocalı soyqırımına həsr olunmuş kitablar, broşürlər çap edilir və kinofilmlər çəkilərək dünya ictimaiyyətinə nümayiş etdirilir. Leyla Əliyevanın rəhbərliyi ilə keçirilən "Xocalıya ədalət!" kampaniyası bütün xocalılıların səsini dünya ictimaiyyətinə çatdırır. Ermənistanın törətdiyi Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla xanım Əliyevanın böyük rolu olmuşdur. Onun təşəbbüsü ilə 2008-ci il mayın 8-də Şuşanın işğalının ildönümündə irəli sürülmüş "Xocalıya ədalət!" kampaniyası 80-dən artıq ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla davam etdirilir. Kampaniyanın məqsədi beynəlxalq ictimaiyyətin Xocalı faciəsi ilə bağlı məlumatlandırılması, faciəyə beynəlxalq aləmdə siyasi-hüquqi qiymət verilməsi və həmçinin beynəlxalq səviyyədə anılmasını təmin etməkdir. Hazırda dünyanın bir çox nöqtəsində həyata keçirilən bu kampaniya çərçivəsində görülən işlərin nəticəsində İslam Əməkdaşlıq Təşkilatının üzvü olan 50-dən artıq ölkənin parlament nümayəndə heyəti Xocalı faciəsini beynəlxalq səviyyədə soyqırımı kimi tanıyıb. Artıq dünyanın iri şəhərlərində Xocalı soyqırımı qurbanlarının xatirəsinə küçələrə və parklara Xocalı adı verilir. Xocalı haqqında həqiqətlər ictimaiyyətə təqdim edilir. 2012-ci il fevral ayının 24-də Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulan "Dostluq parkı"nın və Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş abidənin açılışı olmuş, fondun vitse - prezidenti Leyla xanım Əliyeva şəhər ictimaiyyətinə Xocalı soyqırımı ilə bağlı geniş məlumat vermiş və tədbir iştirakçılarına soyqırımı əks etdirən videoçarxlar təqdim edilmişdir. Dünyanın əksər ölkələrində keçirilən bu kampaniyaya həmin ölkələrin gəncləri də qoşulmuşlar. Son vaxtlar Amsterdam, Brüssel, Vyana, Vilnüs, Mexiko, Paris, Moskva və Los-Ancelesdə də bu istiqamətdə tədbirlər keçirilmişdir. Xocalı soyqırımının dünyada tanınması üçün bir sıra beynəlxalq təşkilatlarda da işlər aparılır. Azərbaycan ərazilərinin işğaldan azad edilməsini tələb edən, Ermənistanı təcavüzkar dövlət kimi tanıyan qətnamələr qəbul edən İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan ilk beynəlxalq təşkilatdır. Öz növbəsində, ABŞ-ın Xocalı soyqırımını tanıyan və bu cinayəti pisləyən ştatlarının sayı hər il artmaqdadır... Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi məsələsindən danışarkən qeyd etməliyik ki, Ermənistanın hərbi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə — Xocalı soyqırımına, əsl soyqırım hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri və bu sahədə qəbul edilmiş sənəd və qərarlar əsasında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli üzrə danışıqlar davam etdirilir. Aparılan danışıqlarda Azərbaycan ölkənin ərazi bütövlüyü və suverenliyinin bərpası, işğalçı qüvvələrin bütün işğal olunmuş ərazilərdən çıxarılması, doğma yurdundan didərgin düşmüş məcburi köçkünlərin öz evlərinə qayıtması, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmasının sülh şəraitində birgə yaşayışının təmin edilməsi, ərazilərin bərpası və kommunikasiyaların açılması və sonrakı mərhələdə hər iki icmanın iştirakı ilə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağ bölgəsinin statusunun müəyyənləşməsi mövqeyindən çıxış edir. İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan heç vaxt öz əzəli torpağında ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Haqq-ədalətin mövqeyində olan Azərbaycan dövlətinin öz həqiqətlərini dünya ictimaiyyətinə çatdırması bu sahədə həyata keçirilən düzgün, məqsədyönlü siyasətin nəticəsidir. Gec-tez bizim həqiqətimiz erməni dezinformasiyasının yalan, qondarma tarixini ifşa edəcək və biz torpaqlarımızın işğaldan azad olunmasına nail olacağıq. Dünya dövlətləri də ədalətin tərəfində olub beynəlxalq hüquq normalarına əsasən Azərbaycanın haqqını müdafiə etməlidir...

**Müşfiq CƏFƏROV,**
**"Respublika".**

*"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün".*